

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 1 (23.413)

*2 yanvar 2020-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Qarnizonunun Hərbi Hospitalına bayram sovqatı aparılmışdır







Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu milli həmrəylik bu gün müstəqil Azərbaycanda inkişafın və sabitliyin əsas təminatıdır. Dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən həmrəylik bayramı xalq-ordu birliyinin də əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikasında da xalq-ordu birliyi ilbəil möhkəmləndirilir, həmrəylik bayramında əsgərlərlə görüşlər keçirilir, onlara sovqatlar təqdim olunur.

Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Qarnizonunun Hərbi Hospitalına gəlmiş, burada müalicə olunan əsgərlərlə görüşmüş, onların səhhəti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, muxtar respublika ərazisindəki hərbi hissələrdə əsgərlərin məişət şəraiti, qidalanması və sağlamlıqlarının qorunması diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, hazırda Naxçıvan Qarnizonunun Hərbi Hospitalına müraciət edən xəstələrin sayı kəskin azalmışdır. Eyni zamanda infeksion və yoluxucu xəstəliklərlə bağlı müraciət qeydə alınmamışdır.

Hospitalda müalicə olunan əsgərlərdən Rahib Ağalarzadə, Orxan Ramazanov və tibb bacısı Nəzakət Qafarova hərbi hospitalda müalicə olunan xəstələr və kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, bayram təbriklərini çatdırmışlar.

Həkim Fail Məmmədov demişdir: “Bu gün hərbi hospitalda tibbi xidmətin təşkili üçün lazım olan hər şərait var. Bayram günündə Ali Məclis Sədrinin hospitalda olması, burada müalicə olunan hərbçilər və kollektivlə görüşməsi göstərilən diqqətin daha bir ifadəsidir. Etiraf etmək lazımdır ki, Ali Məclis Sədrinin tövsiyələrinin əsas götürülməsi işimizi düzgün təşkil etməyə imkan verir. Artıq Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçuların sağlamlığının qorunması sahəsində heç bir problem yoxdur. Bütün bunlara görə minnətdarlıq edirik”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kollektivə təşəkkür edərək demişdir: Bu gün Naxçıvan Qarnizonunun Hərbi Hospitalında tibbi heyət tam formalaşmışdır. Bununla yanaşı, istər ucqar dağ və sərhəd bölgələrində, istərsə də mərkəzdə hərbi hissələr üçün müasir xidmət və yaşayış komplekslərinin istifadəyə verilməsi, əsgərlərin qidalanmasının və geyiminin diqqətdə saxlanılması xəstəliklərin sayını xeyli azaltmışdır. Görülən işlərin davamı kimi, hazırda Naxçıvan şəhərində regionun ən müasir hərbi hospitalı tikilir. Bütün bunlar ölkəmizdə uğurla davam etdirilən ulu öndər Heydər Əliyev yolunun, mövcud sabitliyin və iqtisadi inkişafın bəhrəsidir.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və tibb işçilərinə də bayram sovqatları paylanmış, müxtəlif adda ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan hərbi şəhərciyində zabit yataqxanası istifadəyə verilmişdir





Ordunun gücünü təşkil edən əsas amillərdən biri də şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Bu gün Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlərin tərkib hissəsi kimi müasir əsgər və zabit yataqxanaları, hərbçi ailələri üçün yeni yaşayış binaları tikilərək istifadəyə verilir.

Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan şəhərindəki hərbi şəhərcikdə zabit yataqxanası yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan bina yenidən qurulmuş, qapı və pəncərələr dəyişdirilmişdir. 220 yerlik binada bütün yataq otaqlarının mebelləri yenilənmiş, mərkəzləşmiş antena sistemi qurulmuş, telefon çəkilmiş, 2 VİP otaq, eləcə də növbətçi və komendant otaqları istifadəyə verilmişdir.

Zirzəmidə bərbər, hamam, camaşırxana, qazanxana yerləşir. Binanın həyətində də abadlıq işləri aparılmış, istirahət köşkü qoyulmuşdur.

Sonra Ali Məclisin Sədri hərbi şəhərcikdə görülən abadlıq işləri ilə maraqlanmışdır. Bildirilmişdir ki, şəhərcikdəki bütün yaşayış binaları təmir olunmuş, pəncərələri dəyişdirilmiş, havalandırma sistemləri qurulmuş, elektrik, qaz, su və kanalizasiya xətləri yenilənmişdir. Hərbi şəhərciyin ərazisi tamamilə asfaltlanmış, hərbçi ailələrinin istirahəti üçün

*Ardı 2-ci səhifədə*





lazımi işlər görülmüş, futbol, basketbol və voleybol meydançaları yaradılmış, uşaq əyləncə qurğuları qoyulmuş, yollar genişləndirilmiş, yaşıllıqlar salınmışdır. Həmçinin Qarnizon tam orta məktəbində və uşaq bağçasında da təmir işləri aparılmışdır.

Ali Məclisin Sədri hərbçilərin ailə üzvləri ilə görüşmüş, onların bayramlarını təbrik edərək demişdir: Zabit ailələrinin normal yaşayışının təmin olunması bu gün qarşıda duran əsas məsələlərdəndir. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür. Bu il Kəngərli rayonunun Qıvraq qəsəbəsində zabit ailələri üçün 44 mənzilli yaşayış binası istifadəyə verilmişdir. Həmçinin Naxçıvan şəhərində yerləşən hərbi şəhərcikdə də zabit ailələrinin yaşayışı üçün lazımi şərait yaradılmışdır. Ərazidə müasir məktəb və uşaq bağçası, xidmət sahələri və tibb məntəqəsi fəaliyyət göstərir. Bu gün isə subay zabitlər üçün yataqxananın açılışı olmuşdur. Bütün bunlar da imkan verir ki, zabitlərimiz öz xidmətlərini rahat həyata keçirə bilsinlər.



Hərbiçi ailələri adından minnətdarlıq edən Arzu Quliyeva, Kübra Məmmədova, Cəmilə Əhmədova və Şəfa Əliyeva bayram günündə hərbçilərin ailə üzvləri ilə görüşlərin keçirilməsini yüksək qiymətləndirmişlər.

Hərbçi övladı Ömər Heydərov vətənpərvərlik mövzusunda şeir söyləmişdir.

Vəfa Gülməmmədova Ali Məclisin Sədrinə bayram təbriklərini çatdıraraq demişdir: "Yoldaşım zabitdir. 20 ildən artıqdır ki, Naxçıvanda xidmət edir və ailəmiz burada yaşayır. Ötən dövrdə muxtar respublikanın böyük inkişaf yolu keçdiyinə şahidlik etmişəm. Əvvəllər hərbçi ailələrinin yaşayışı üçün normal şərait yox idi. Lakin bu gün ən müasir şəhərcikdə, hərtərəfli təminatı olan mənzillərdə yaşayırıq. Övladlarımızın təhsili, asudə vaxtının səmərəli təşkili üçün bütün tədbirlər görülüb. Bu da bizi sevindirir, qürurlandırır. Dövlətimizlə, ordumuzla fəxr edirik".

Qarnizon tam orta məktəbinin şagirdi Solmaz Gülməmmədova demişdir ki, hərbçi uşaqlarının təhsili üçün məktəbimizdə lazımi şərait yaradılıb, ən müasir tədris avadanlıqları quraşdırılıb. Qardaşım 2017-ci ildə yüksək balla ali məktəbə qəbul olmuş, Ali Məclis Sədri ilə görüşmüşdür. Mən də qarşıma məqsəd qoymuşam ki, yaradılan şəraitdən istifadə edərək hərtərəfli təhsil alım.

Ali Məclisin Sədri bütün hərbçi ailələrini bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik etmiş, hərbi şəhərcikdə gələcəkdə də abadlıq-quruculuq işlərinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı qeyd olunmuşdur





2019-cu ildə muxtar respublikada bütün sahələrdə inkişafa nail olunmuş, ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər davam etdirilmiş, makroiqtisadi göstəricilər artmış, yaşayış məntəqələrində geniş quruculuq işləri aparılmışdır. Yola saldığımız ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi qeyd olunmuş, əməkhaqlarının artırılması, yeni iş yerlərinin açılması əhalinin rifahını və məşğulluğunu təmin etmiş, sabitlik daha da möhkəmlənmişdir. Naxçıvan Muxtar Respublikası 2020-ci ili böyük uğur və nailiyyətlərlə qarşılayır.

Dekabrın 31-də Naxçıvan şəhərində həmrəylik bayramı və yeni ilin gəlişi minlərlə sakinin və turistin iştirakı ilə qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlmişdir.



Ölkə Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda quraşdırılan monitor vasitəsilə yayımlanmışdır. Dövlət başçısı 2019-cu ildə də ölkəmizdə inkişafın təmin olunduğunu bildirərək demişdir: ***"2019-cu ildə ölkəmiz sabitlik, əmin-amanlıq şəraitində yaşamışdır. Dünyada gedən proseslər göz qabağındadır. Dünyanın müxtəlif yerlərində, bizim yerləşdiyimiz regionda, post-sovet məkanında, Avropada, Asiyada, Latın Amerikasında münaqişələr, müharibələr, qanlı toqquşmalar, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının tapdanması geniş vüsət almışdır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf məkanıdır. Bu, bizim böyük nailiyyətimizdir".***

Gecə saatlarında Naxçıvan şəhərində möhtəşəm bayram atəşfəşanlığı olmuş, yeni il xoş ovqat və böyük təntənə ilə qarşılanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasında Yeni il şənlikləri keçirilir

Ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqət muxtar respublika sakinlərinin birlik və həmrəyliyini möhkəmləndirir, 2020-ci ilin ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında növbəti inkişaf mərhələsi kimi tarixə yazılacağına əminlik yaradır.

Yanvarın 1-də Naxçıvan şəhərində yeni

*Ardı 3-cü səhifədə*











ilin gəlişi münasibətilə bayram şənliyi keçirilmişdir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində şən mahnılar səsləndirilmiş, muxtar respublikada fəaliyyət göstərən 26 istehsal və xidmət müəssisəsi, eləcə də ailə təsərrüfatları tərəfindən əhaliyə ictimai iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində iştirak edərək ictimai iaşə xidmətinin təşkili ilə maraqlanmış, sakinlərin bayramını təbrik etmiş, uşaqlara hədiyyələr vermişdir.

Uşaqlardan Məhərrəm Əliyev və Afaq Məmmədli ulu öndərimizə, Naxçıvana həsr olunmuş şeirlər söyləmişlər.

Şəhər sakini Sabirə Həsənəliyeva Ali Məclis Sədrinin bayramını təbrik etmişdir.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də yeni il şənlikləri keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı muxtar respublikanın rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

## Şərur rayonu

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qətiyyətli və ardıcıl siyasəti Şərur rayonunun da simasını günü-gündən dəyişir. İl ərzində rayonda sənaye məhsulları istehsalının həcmi artıb, xidmət sahələrinin fəaliyyəti genişlənib, əhalinin həyat səviyyəsi yüksəldilib. Dövlətin diqqət və qayğısı ilə sahibkarlar, ailə təsərrüfatçıları üçün açılan geniş meydan bu sahə ilə məşğul olanlara hərtərəfli imkanlar yaradıb.

2019-cu ildə Şərur şəhərində Mərkəzi və Uşaq xəstəxanaları əsaslı təmir edilib, Kərimbəyli, Qışlaqabbas, Muğanlı, Alışar, Yeni Havuş, Xətai, Xələc kəndlərində yeni sosial obyektlər tikilib, Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin çəkilişi başa çatıb. Hazırda Muğancıq-Mehrab və Məmmədsabir kəndlərində yeni sosial obyektlərin, Şərur şəhərində Mədəniyyət Sarayının, “Naxçıvanbank” ASC Şərur rayon filialının, Mərasim evinin, təqaüdçülər üçün nəzərdə tutulmuş ikimərtəbəli binanın, yaşayış binasının və digər obyektlərin tikintisi davam etdirilir.



Ümumilikdə, rayonun hər yerində yenilik, yüksələn inkişaf, tərəqqi mövcuddur. Hər kəsdə sabaha dərin inam və ümid var. Görülən işlərin miqyası, insanların yüksək əhval-ruhiyyəsi, ümumi yüksəliş abhavası belə qənaətə gəlməyə əsas verir ki, rayonda 2020-ci il daha uğurlu nəticələrlə yekunlaşacaqdır.

Bütün bunlar barəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rayonun idarə və təşkilatlarında, tədris müəssisələrində təşkil olunan şənliklərdə ətraflı danışılıb. Qeyd olunub ki, bölgələrin sürətli inkişafı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, yeni infrastruktur layihələrinin həyata keçirilməsinə stimul yaradır. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyondan çox soydaşımızın respublikanın siyasi və iqtisadi cəhətdən tərəqqisi, inkişafı, tanınması üçün birləşməsi, bir məqsəd uğrunda mübarizə aparması, diasporların möhkəmləndirilməsi və genişləndirilməsi üçün ulu öndərin həyata keçirdiyi tədbirlər bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir.

Yanvarın 1-də Şərur şəhərindəki Heydər Parkında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil olunmuş ümumrayon tədbirində “Arpaçay” instrumental ansamblı solistlərinin ifasında şən mahnılar səslənib. “Şərur” və “Şərur qönçələri” yallı ansambllarının üzvləri bu qədim el sənətindən nümunələr ifa ediblər. Uşaq musiqi məktəbləri şagirdlərinin, bağça uşaqlarının çıxışları tədbirə şən ovqat qatıb. Şaxta baba və Qar qız şənlik iştirakçılarını təbrik edib, uşaqlara hədiyyələr paylayıblar.

## Babək rayonu



31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı Babək rayonunda da təntənə ilə qeyd edilib. Sakinlərin böyük ruh yüksəkliyi qatdıqları rayon mərkəzində keçirilən tədbirdə milli birliyimizə, həmrəyliyimizə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma yurdumuza həsr olunan şeirlər səsləndirilib, mahnı və rəqslər iştirakçıları xoş ovqat bəxş edib, Şaxta baba və Qar qız uşaqlara bayram sovqatı veriblər.

Tədbirin aparıcıları bildiriblər ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən işlər bütün bölgələr kimi, Babək rayonunun da tərəqqisinə öz töhfələrini verib. 2019-cu ildə rayonda geniş tikinti-quruculuq işləri aparılıb, yeni bağlar, yaşıllıq sahələri salınıb. Belə ki, yola saldığımız ildə Babək rayonu ərazisində Ali Məclis Sədrinin iştirakı ilə muxtar respublikada ilk dəfə olaraq müasir ağacyetişdirmə sahəsi – “İqlim otağı”, rayon Elektrik Şəbəkəsi üçün inşa olunan yeni inzibati bina istifadəyə verilib.

Ötən ilin payızı Babək rayonu üçün çox əlamətdar olub. Çünki həmin vaxt qədim yaşayış məntəqəsi olan Kültəpə müasirliyə qovuşub. Bir gündə 3 sosial obyekt və kənd yolu əsaslı yenidənqurmadan sonra sakinlərin istifadəsinə verilib. Daha sonra kiçik yaşayış məntəqəsi olan Gülşənabadın müasirləşməsi istiqamətində böyük addımlar atılıb və kənd adını muxtar respublikanın abadlaşan yaşayış məntəqələri sırasına yazdırıb.

Qeyd edilib ki, 2019-cu ilin ən mühüm uğurlarından biri rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı olub. Belə ki, ötən ilin dekabr ayında rayon Mərkəzi Xəstəxanasında əsaslı yenidənqurma işləri aparılıb, bir çox şöbələr yenidən təşkil edilib.

Şənlikdə iştirak edən rayon sakinləri ilə söhbət zamanı ildən-ilə qüdrətlənən Azərbaycan kimi bir ölkədə yaşadıqlarından qürur hissi duyduqlarını dilə gətirdilər. Cəmiyyətin bütün təbəqələrindən olan insanlar bayramların belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlıqlarını, ən xoş arzularını bildirdilər.

## Ordubad rayonu

Ordubad rayonunun sakinləri də 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ili böyük coşqu ilə qeyd ediblər. Yola saldığımız 2019-cu ildə Ordubad rayonunun həyatında da mühüm hadisələr baş verib, sosial obyektlər, inzibati və yaşayış binaları tikilib, yeni iş yerləri yaradılıb, yollar abadlaşdırılıb, əhalinin yaşayış şəraiti daha da yaxşılaşdırılıb.



Ötən il Dəstə kəndində 900 şagird yerlik məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, mərasim evi inşa olunub, 5,5 kilometr uzunluğunda kənddaxili yollar yenidən qurularaq asfaltlanıb. Azadkənddə içməli su layihəsi gerçəkləşdirilib, Culfa-Ordubad magistral avtomobil yolu yenidən qurulub, Ordubad Su Elektrik Stansiyasının, Ordubad şəhərində içməli su və kanalizasiya xətlərinin çəkilişi, zirzəmisi ilə birlikdə 8 mərtəbəli yaşayış binasının tikintisi davam etdirilib. Eləcə də Vənənd kəndində 432 şagird yerlik məktəb binasının, kənd və xidmət mərkəzlərinin, 3 mərtəbəli musiqi məktəbinin, həkim ambulatoriyasının tikintisində əsas işlər, demək olar ki, başa çatdırılıb, Naxçıvan-Ordubad magistral avtomobil yolundan Vənənd kəndinin qurtaracağınadək olan avtomobil yolu genişləndirilərək asfaltlanıb. Dırnıs kəndində Allahşükür məscidi istifadəyə verilib.

Bayram dekabrın 31-də axşam libasına bürünmüş Ordubad şəhərində xalq gəzintisi təşkil olunub. Şəhər sakinləri Tədbirlər meydanında qarşıdan gələn 2020-ci ili yüksək ovqatla qarşılayıblar.

2020-ci il yanvar ayının 1-də isə Ordubad şəhərində keçirilən şənlikdə aparıcı ötən il rayonda baş verən mühüm yeniliklər barəsində ətraflı söhbət açıb.

Rayonun bədii özfəaliyyət kollektivləri, rəqs qrupları və Ordubad Xalq Teatrının üzvləri tədbir iştirakçılarına xoş ovqat bəxş ediblər.

Ardı 4-cü səhifədə

## Culfa rayonu



2019-cu ili böyük nailiyyətlərlə başa vuran Culfa rayonu yeni ili sevinclə qarşılayıb. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən böyük quruculuq siyasəti Culfa rayonunun da simasını günü-gündən dəyişir, hər il onlarla yeni obyektlər tikilir, yaxud əsaslı şəkildə yenidən qurulur, yollar çəkilir, körpülər salınır, yaşayış məntəqələri abadlaşdırılır.

Ötən il də culfalılar üçün quruculuq tədbirləri ilə yaddaqalan olub. Hazırda aparılan belə tədbirlərin davamı olaraq Heydər Əliyev prospekti yenidən qurulur, Rabitə Evi, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin inzibati binası, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin Vaqon Təmiri sexi və inzibati binası, Təhsil Şöbəsi üçün binalar inşa olunur, kənddaxili yollara qara örtük salınır, Darıdağ arsenli su müalicə və istirahət kompleksinin inşası davam etdirilir.

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilən bayram tədbirində aparıcılar qazanılan nailiyyətləri sadalayıb, bu yüksəlişə, tərəqqiyə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində mümkün olduğunu vurğulayıblar.

Şaxta babanın, Qar qızın, nağıl qəhrəmanlarının, rayon Mədəniyyət Evinin özfəaliyyət və Culfa şəhərindəki uşaq musiqi məktəbi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramı təqdim olunub. Nağıl qəhrəmanları ilə görüşən və Şaxta babadan yeni il hədiyyələri alan uşaqlar əsl bayram sevinci yaşayıblar.

## Kəngərli rayonu



Yola saldığımız 2019-cu ildə yaradılmasının 15 illiyi tamam olan Kəngərli rayonu ötən illər ərzində böyük inkişaf yolu keçib. İqtisadiyyatın dinamik inkişafı rayonda sosial sahələrin sürətli inkişafına, tikinti-quruculuq işlərinin həcminin genişləndirilməsinə imkan yaradıb. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində bütün yaşayış məntəqələri abadlaşdırılıb, rayon mərkəzi ilə kəndləri birləşdirən avtomobil yolları yenidən qurulub.

2019-cu ildə rayonun Qabıllı kəndinin ərazisində 2 meqavat gücündəki yeni Günəş Elektrik Stansiyası, rayon mərkəzində 48 mənzilli yaşayış binası, Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün 44 mənzilli yeni yaşayış binası və hərbçi ailələri və sakinlər üçün yeni istirahət parkı, dekabrın 28-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində isə rayonun Böyükdüz kəndində yeni sosial obyektlərin açılışı olub. Bununla bərabər, Şahtaxtı hamamında kompleks bərpa işləri aparılıb, Qıvraq qəsəbəsində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin rayon filialı üçün inşa olunan binanın tikintisi başa çatdırılıb, rayon mərkəzində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi davam etdirilib.

Yanvarın 1-də rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən şənlikdə 2019-cu ildə rayonda bütün sahələrdə qazanılan uğurlar barədə geniş danışılıb. Bayram tədbirində "Kəngər" instrumental ansamblının və rayonun musiqi kollektivlərinin səsləndirdikləri mahnılar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Şaxta baba və Qar qız uşaqları təbrik edib, onlara hədiyyələr paylayıblar. Keçirilən tədbirdə təhsil və idman sahələrindəki nailiyyətləri ilə seçilən şagirdlərə hədiyyələr təqdim olunub.

## Şahbuz rayonu



Artıq tərəqqi və uğurlarla dolu olan "Ailə təsərrüfatları ili" – 2019-cu il tarixə qovuşdu. Şahbuz rayon sakinləri də yeni ili xoş arzular, yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Əlamətdar bayramlar münasibətilə təşkil olunan ümumrayon tədbirində böyük sevinc və coşqu ilə iştirak edən hər bir şahbuzluya yaxşı yaşayış, məişət və iş şəraiti yaradılması üçün dövlət qayğısı ilə görülən işləri sadalayan tədbir aparıcıları yeni illə bağlı arzularını da dilə gətirdilər.

Yeni il şənliyinə toplaşanların könlündə xoş ovqat yaradan rayonun musiqi kollektivləri oynaq mahnılar ifa etdilər, şən musiqilər səsləndirdilər. Həmçinin tədbirdə ulu öndər Heydər Əliyevə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma Naxçıvanımıza həsr olunmuş şeirlər də bədii qiraət olundu.

Şaxta baba və Qar qız körpələri hədiyyələrlə sevindirdilər.

Tədbirin sonunda həmsöhbət olduğumuz rayon sakinlərinin ildən-ilə qüdrətlənən Azərbaycan vətəndaşı olmalarından haqlı qürur hissi duyduqlarının bir daha şahidi olduq. Müəllim, həkim, el ağsaqqalları, xülasə, cəmiyyətin bütün təbəqələrindən olan insanlar bayramların rayonda belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlıqlarını bildirib, xoş arzularını dilə gətirdilər. "Qoy bu əmin-amanlıq, rahat yaşayışımız Azərbaycan, eləcə də canımız qədər sevdiyimiz Naxçıvanımız üçün əbədi olsun, düşərli olsun, bol-bol yeniliklərlə, uğurlarla gəlsin", – dedilər.

## Sədərək rayonu



Heydərabad qəsəbəsindəki Mədəniyyət və istirahət parkının önündə keçirilən bayram şənliyində rayon Mədəniyyət Şöbəsinin musiqi və rəqs kollektivləri, uşaq musiqi məktəbinin yetirmələri şeirlər söyləyib, mahnı və rəqslər ifa ediblər.

Rayon Mədəniyyət Şöbəsinin "Qeyrət qalası" instrumental ansamblının ifasında səslənən mahnılar tədbirə toplaşanların alqışlarına səbəb olub. Yallı qrupunun ifa etdiyi "Qaladan qalaya" yallısı tədbir iştirakçılarında xoş ovqat yaradıb. Heydərabad qəsəbəsindəki uşaq bağçasının fidanları "Yeni il", "Naxçıvan" və "Şaxta baba" şeirlərini bədii qiraət ediblər. Şaxta baba uşaqları hədiyyələrlə mükafatlandırıb.

Bayram tədbirinin yüksək ovqatla qeyd edilməsinin başlıca səbəblərindən biri 2019-cu ilin muxtar respublikamızın bütün bölgələri kimi, Sədərək rayonu üçün də uğurlu, yaddaqalan il olmasıdır. Ötən il də iqtisadi, sosial, mədəni sahələrdə sürətli inkişafda sədərəklilər fəal iştirak ediblər. İl ərzində rayonda tikinti-quruculuq işləri aparılıb. Heydərabad qəsəbəsində 7 mərtəbəli 48 mənzilli yaşayış binasının tikintisi başa çatıb. Sədərək gömrük-keçid məntəqəsinin və Sədərək kəndində mərasim evinin inşası davam etdirilir. Ötən ildə də genişmiqyaslı yaşıllaşdırma tədbirləri həyata keçirilib, dövlət proqramlarının icrası istiqamətində bir sıra işlər görülüb, sahibkarlığın inkişafına diqqət artırılıb, əhalinin məşğulluğu təmin edilib.

Sözsüz ki, həyata keçirilən bütün bu tədbirlər əhalinin həyat şəraitinə də müsbət təsir göstərib. Sədərəklilər inanırlar ki, 2020-ci il də onlar üçün nailiyyətlər ili olacaq.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 illiyi qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 illiyi münasibətilə könüllü gənclərlə görüş təşkil olunub.***





Əvvəlcə Gənclər və İdman Nazirliyinin şöbə müdiri Ayaz Cabbarov çıxış edərək bildirib ki, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu vardır. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Müstəqilliyimizin ilk illərində gənclərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, forumların, konfransların keçirilməsi, dövlət proqramlarının qəbul olunması ilə yanaşı, bu sahənin inkişafında əsas addımlardan biri də 26 iyul 1994-cü ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması oldu. Həmçinin muxtar respublikada da gənclərlə iş sahəsini təkmilləşdirmək, ayrı-ayrı dövlət orqanlarının bu sahədə fəaliyyətini əlaqələndirmək məqsədilə 1994-cü il dekabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, muxtar respublika gəncliyi üçün ən önəmli tarixi hadisələrdən biridir. Belə ki, 25 illik fəaliyyəti dövründə nazirlik muxtar respublikada gənclərin hərtərəfli inkişafı, asudə vaxtlarının səmərəli təşkili, vətənpərvərlik tərbiyələrinin yüksəldilməsi, intellektual səviyyələrinin və dünyagörüşlərinin artırılması, onlarda ətraf mühitə qayğının formalaşdırılması istiqamətində bir sıra işlərə və yeniliklərə imza atdı. Muxtar respublikada gənclərlə bağlı bir neçə layihənin, həmçinin könüllülük hərəkatının əsasını qoydu.

Hazırda muxtar respublika əhalisinin 140 min nəfərdən çoxunu, yaxud 30 faizini 14-29 yaşda olan gənclər təşkil edir. Həmin gənclərin hərtərəfli inkişafı, sosiallaşması, maraqlarının təmin olunması daim dövlətimizin diqqətində olan mühüm məsələlərdəndir. Bu məsələlər muxtar respublikada həyata keçirən əsas icraedici orqan olaraq Gənclər və İdman Nazirliyi gəncləri daim ətrafında toplayaraq, ölkəmiz və muxtar respublikamız üçün birlikdə böyük işlər həyata keçirir. Hələ 2018-ci ildə gənclərin də dəstəyi ilə muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri ölkəmizin Gənclər Paytaxtı seçildi. Bu, Naxçıvan gəncliyinin gücünün, birliyinin, eyni zamanda fəallığının böyük təcəssümü idi.

Naxçıvan şəhəri ətrafında "Gənclər bağı"nın salınması, gənclərimizin ətraf mühitin qorunmasına, ahıllara və fiziki imkanları məhdud uşaqlara yönəlmiş layihələr irəli sürməsi muxtar respublika gəncliyinin qayğıkeşliyini, vətənpərvərliyini sübut edən amillərdəndir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin 25 illik fəaliyyət tarixində imza atdığı yeniliklərdən biri də könüllülük hərəkatı oldu. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş 16 iyun 2018-ci il tarixdə keçirilən futbol üzrə "Heydər Əliyev kuboku" turnirində könüllü gənclərin iştirak və fəaliyyətlərinin təmin edilməsi ilə muxtar respublikada gənclər sahəsində yeni bir istiqamətin əsası qoyuldu. Könüllülərlə işi daha da rəsmiləşdirmək və təkmilləşdirmək məqsədilə isə 2019-cu ilin oktyabr ayında "Könüllü ol" layihəsinə start verildi. Bu gün layihə ətrafında 100-ə yaxın gənc birləşib.

Tədbirdə fəal könüllü gənclərə fərqlənməyə görə diplom təqdim olundu. Sonra onlar tərəfindən hazırlanmış vətənpərvərlik mövzusunda kompozisiya və rəqs nömrələri nümayiş olunub. 100-ə yaxın gəncin iştirak etdiyi tədbir konsert proqramı ilə yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 1